# YAP-ın təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar silsilə tədbirlər davam edir

Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar partiyanın Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş tədbirlər planına uyğun olaraq silsilə tədbirlər davam edir.

Tədbirlər planı çərçivəsində noyabrın 4-də partiyanın Qəbələ və Pirallahı rayon təşkilatları tərəfindən tədbirlər keçirilib.

Tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Keçirilən tədbirlərdə - Qəbələ rayonunda YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı



Səbuhi Abdullayev, YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva, Milli Məclisin deputatı Aqiyə Naxçıvanlı, Pirallahı rayonunda YAP Pirallahı Rayon Təşkilatının sədri Emil Abasov, Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov, YAP Veteranlar Şurasının üzvü Tahir Məmmədov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rauf Əliyev, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev, "Səs" İnformasiya Agentliyinin baş direktoru Bəhruz Quliyev və başqaları çıxış ediblər.

Çıxışlarda Yeni Azərbaycan Partiyasının 30 il ərzində keçdiyi zəngin və şərəfli inkişaf yoluna nəzər salınıb. Azərbaycan dövlətinin Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanaraq yeni zirvələr fəth etdiyi diqqətə çatdırılıb.

Tədbirlərdə YAP sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri və partiya fəallarına fəxri fərmanlar təqdim edilib.

Bundan əlavə, tədbirlər planına uyğun olaraq noyabrın 4-də YAP Xəzər Rayon Təşkilatının gənc fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

Azərbaycan.- 2022.- 5 noyabr.- S.9.